1923 *Azərbaycanın özü qədər əbədi* 2016

# İqtisadi inkişafın banisi

## Azərbaycanda sahibkarlığa qayğı və himayədarlıq ulu öndər Heydər Əliyev tərəfindən dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi

Bu il dövlət müstəqilliyimizin bərpasının 25-ci ili tamam olur. Dövlətçilik tarixi baxımdan bu müddət çox deyil. Lakin respublikamızın bu qısa zaman kəsiyində bütün dünyada qəbul olunan və etiraf edilən uğurları saysız-hesabsızdır. Bu dövrdə Azərbaycanın inkişafını xarakterizə edən əsas cəhətlərdən biri liberal dəyərlərə əsaslanan azad bazar iqtisadiyyatının formalaşmasıdır.

Bazar iqtisadiyyatına keçidin, yeni mülkiyyətin formalaşması prosesinin diktə etdiyi ən başlıca şərtin məhz özəl sektorun fəaliyyəti üçün dövlət səviyyəsində maksimum imkanların yaradılmasından, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılmasından ibarət olması heç kəsə sirr deyil. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, ÜDM istehsalında bu təbəqənin rolunu artırmadan dinamik iqtisadi yüksəlişi təmin etmək qeyri-mümkündür. Bu baxımdan sahibkarlığın inkişafı üçün dövlət səviyyəsində bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsi, biznes fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması məqsədilə əsaslı islahatların aparılması Azərbaycanda həyata keçirilən inkişaf strategiyasının əsas qayəsini təşkil etməli idi.

Lakin müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə hakimiyyətdə olan iqtidarların kortəbii siyasəti iqtisadi böhranı dərinləşdirdiyi kimi, sahibkarlığın da inkişafını ləngidirdi. Reallıq ondan ibarət idi ki, Azərbaycanda sahibkarlıq mühitinin formalaşması ziddiyyətli, əhalinin sahibkarlıq potensialının gerçəkləşməsi məhdud, sahibkarların ölkə iqtisadiyyatının böhrandan çıxarılmasına təsiri zəif, çağdaş sahibkarlıq norma və qaydalarının yayılması sistemsiz xarakter daşıyırdı. Formalaşan yeni sahibkarlıq strukturları ölkənin potensialını ümumiyyətlə əks etdirmirdi. Sahibkarlığa kömək sahəsində güclü dövlət siyasəti gerçəkləşdirilmədiyindən, təbii ki, dövlət orqanları ilə özəl sektor arasında əlaqə mexanizmi də qurulmamışdı. Bir sözlə, sahibkarlığın inkişafını sürətləndirmək məqsədi daşıyan ilə dövlət siyasəti demək olar ki, yox idi.

Bu reallığı ölkəyə rəhbərliyinin ilk günlərindən dəqiq müəyyən edən ulu öndər Heydər Əliyevin iqtisadi sahədə həyata keçirdiyi siyasətin əsas qayələrindən biri məhz sahibkarlığın inkişafının təminatı idi. Məhz ulu öndərin həyata keçirdiyi uzaqgörən siyasətin, islahatların nəticəsi olaraq Azərbaycanda sahibkarlığın inkişafı üçün münbit şərait formalaşdırıldı, dövlət tərəfindən özəl sektora hərtərəfli dəstək nümayiş etdirildi, sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirildi. Yeni Konstitusiyada bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa təminat verilməsi, rəqabət mexanizminin formalaşması və inkişafı, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapdı.

1994-cü ilin sentyabr ayında Bakıda Azərbaycan iqtisadiyyatının gələcək inkişafı baxımından iki mühüm hadisə oldu. Həmin ay dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Paytaxtımızda "Sahibkarlıq strategiyası və iqtisadi yenidənqurma" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda nitq söyləyən ulu öndər Heydər Əliyev Azərbaycanda sahibkarlığın inkişafı üçün müvafiq şərait yaradıldığını və bunun artıq konkret əməli nəticələr verdiyini bildirərək xarici investorları Azərbaycana dəvət etdi. Dünyanın nəhəng və tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması və bu konfrans xarici iş adamlarının Azərbaycanda sahibkarlıq fəaliyyətinə, iqtisadiyyatımıza sərmayə qoyuluşunun artmasına əhəmiyyətli dərəcədə stimul verdi.

1993-1995-ci illərdə sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramı həyata keçirilsə də, əldə olunan nəticələr qənaətbəxş sayıla bilməzdi. Sahibkarlığın inkişafını sürətləndirmək isə Azərbaycan cəmiyyətinin iqtisadi, sosial problemlərinin həllinin vacib amillərindən biri idi. Xüsusən kiçik sahibkarlığa güclü kömək mexanizminin yaradılması təxirəsalınmaz məsələ kimi qarşıda dururdu. Ona görə də ulu öndər Heydər Əliyevin 1997-ci il 24 iyun tarixli fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)" dövrün çağırışlarını nəzərə alaraq kiçik və orta sahibkarlığın inkişafı üçün daha mühüm vəzifələri qarşıya qoymuşdu. Proqramı icrası sayəsində növbəti 3 il ərzində sahibkarlığın ardıcıl inkişafı, iqtisadiyyatda rolunun artırılması və tədricən dünya iqtisadiyyatına inteqrasiya olunması üçün əlverişli mühitin formalaşdırılması, sahibkarlığın hüquqi-normativ bazasının gücləndirilməsi istiqamətində mühüm nəticələr əldə olundu.



Qarşıda duran əsas vəzifələrdən biri də dövlət orqanları tərəfindən yoxlama və nəzarət funksiyalarının həyata keçirilmə mexanizminin müasir tələblərə uyğun təkmilləşdirilməsi idi. Çünki respublikada yeni iqtisadi münasibətlərin yaranması və inkişafı mülkiyyət formasından və təşkilati-hüquqi tabeliyindən asılı olmayaraq dövlət nəzarətinin həyata keçirilməsi qaydalarının dəyişdirilməsini və yeni qanunvericiliklə tənzimlənməsini tələb edirdi. Bütün bunları nəzərə alan ulu öndər Heydər Əliyev 1996-cı il iyunun 17-də "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" və 1999-cu il yanvarın 7-də "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərmanlar imzaladı. Bu fərmanların icrası sayəsində iqtisadi sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azaldı, bazar iqtisadiyyatının inkişafına mənfi təsir göstərən halların qarşısı alındı, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərinin qorunması üçün tədbirlər həyata keçirildi. 1999-cu il iyunun 4-də qüvvəyə minən "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" qanun isə hər kəsin Konstitusiya ilə müəyyən olunmuş azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququnun həyata keçirilməsi məqsədini daşımaqla, respublikamızda kiçik sahibkarlığa dövlət köməyinin iqtisadi, hüquqi, təşkilati əsaslarını, forma və üsullarını müəyyən etdi.

Nəticədə özəl sektor ölkə iqtisadiyyatında payına görə hakim mövqeyə yiyələndi. 2001-ci ilin yekunlarına görə ümumi daxil məhsulda qeyri-dövlət sektorunun payı 71 faiz təşkil etdi. Sənaye istehsalının 48,3 faizi, kənd təsərrüfatı istehsalının 99 faizi, tikinti işlərinin 76,1 faizi, daxili əmtəə dövriyyəsinin 98,4 faizi, əhaliyə göstərilən pullu xidmətlərin 62,5 faizi, sərnişin daşınmasının 83,9 faizi, xarici ticarət dövriyyəsinin 59 faizi, ixracın 52,6 faizi, idxalın 69 faizi özəl bölmənin payına düşdü. Dövlət büdcəsinin gəlirlərinin 39,6 faizi qeyri-dövlət sektorundan daxilolmalar hesabına formalaşdı.

Ümummilli lider Heydər Əliyev tərəfindən 2002-ci ilin aprel-may aylarında yerli və əcnəbi iş adamları ilə keçirdiyi görüşlər Azərbaycanda sahibkarlığın inkişafında yeni addımların atılması ilə yadda qaldı. Bu görüşlərin məntiqi nəticəsi kimi ulu öndərin təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı", "Azərbaycan Respublikası Prezidentinin yanında Sahibkarlar Şurasının yaradılması haqqında" 27 avqust 2002-ci il, "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 10 sentyabr 2002-ci il, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 28 sentyabr 2002-ci il, "Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsinin bəzi məsələləri haqqında" 2 may 2003-cü il tarixli fərmanları sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoydu.

Sahibkarlığın inkişafı ilə bağlı atılan hər bir addım iqtisadiyyatın inkişafına təkan verməklə bu istiqamətdən dövlət tədbirlərini Azərbaycanda iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə isə bu xətt daha əzmlə davam etdirildi, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər geniş vüsət aldı. Prezident İlham Əliyev özəl sektorun inkişafdakı həlledici rolunu düzgün müəyyənləşdirərək, sahibkarlığa yüksək diqqət göstərilməsini hökumət və aidiyyəti qurumlar qarşısında vəzifə kimi qoyaraq, bu istiqamətdə mühüm və uğurlu nəticələr verən əməli tədbirlər həyata keçirdi.

Onu da qeyd edək ki, 2003-2004-cü illərdən iqtisadiyyatda yeni inkişaf mərhələsi başladığından kəmiyyət dəyişikliklərinin keyfiyyət müstəvisinə keçirilməsi, regionların tarazlı inkişafının təmin edilməsi kimi məsələlər ön plana çıxmışdı. Bu isə öz növbəsində sahibkarlığın daha da stimullaşdırılmasını, onların regionların potensialından səmərəli istifadəyə cəlb edilməsini ehtiva edirdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə imzaladığı sənədlərdə məhz bu vəzifələrin yerinə yetirilməsi öz əksini tapmışdı. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cu il və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" 11 fevral 2004-cü il tarixli fərmanlarda ölkədə sahibkarlığın inkişafı önə çəkildi. Bu xətt regional inkişafa xidmət edən növbəti dövlət proqramlarında da özünü göstərdi. Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi mexanizminin təkmilləşdirilməsi haqqında" 4 may 2004-cü il, "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında" 1 mart 2005-ci il, "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" 30 aprel 2007-ci il, "Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında" 13 aprel 2010-cu il, "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli fərmanları da iqtisadiyyatın inkişafında özəl sektorun rolunu əhəmiyyətli dərəcədə artırdı, iqtisadi fəaliyyət sahələrində sahibkarlıq üçün münbit şərait yarandı, qanunvericilik qaydaları liberallaşdı, sahibkarlıq subyektlərinin qeydiyyatında "bir pəncərə" sisteminin tətbiqinə başlanıldı, maliyyə-kredit təminatı yaxşılaşdı, sahibkarların vergi yükü, onların fəaliyyətinə qanunsuz müdaxilələrin sayı azaldı, hüquqlarının müdafiəsi sistemi təkmilləşdirildi. Bu dövrdə qəbul edilən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Xüsusi iqtisadi zonalar haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlar, Şəhərsalma və Tikinti Məcəlləsi və digər qanunvericilik aktları ölkədə sahibkarlığın inkişafına təkan verərək qeyri-neft sektorunun inkişafını stimullaşdırdı.

Özəl sektorun inkişafı bu sahədə tədbirlərin sistemli və ardıcıl olmasını tələb edir. Bunun nəticəsidir ki, dünyada cərəyan edən iqtisadi böhran Azərbaycanda gec hiss olundu. Ötən ilin sonlarından başlayaraq sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və stimullaşdırılması ilə bağlı atılan inqilabi addımlar isə bu sahənin inkişafını yeni keyfiyyət mərhələsinə yüksəltdi. Belə ki, dövlət başçısının 19 oktyabr 2015-ci il tarixli fərmanı ilə təsdiq etdiyi "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" fərmanına əsasən, sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb olunan bütün növləri üzrə (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) xüsusi razılıq (lisenziya) verilməsi İqtisadiyyat Nazirliyinə həvalə edildi. Milli Məclisin qəbul etdiyi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanuna əsasən isə 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırıldı. Bütün bunlar sahibkarlığın dəstəklənməsi istiqamətində atılan mütərəqqi addımlar olmaqla təsdiq edir ki, sahibkarlıq fəaliyyətinin inkişafı Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Dünyada neftin qiymətinin aşağı düşməsindən sonra yaranmış situasiya ölkəmizdə də neqativ ssenarilərə qarşı mütləq qoruyucu və qabaqlayıcı mexanizmlərin həyata keçirilməsini və gücləndirilməsini zəruri edirdi. Bununla bağlı Prezident İlham Əliyevin elan etdiyi yeni iqtisadi siyasətlə əlaqədar həyata keçirilən islahatların bir istiqaməti iqtisadi sektorun inkişafına yol açacaq tədbirlərdən ibarətdir. Bu sırada qarşıya qoyulan biznes mühitinin yaxşılaşdırılması, bu sahədə bürokratik əngəllərin aradan qaldırılması, sahibkarlığın inkişafına dövlət dəstəyinin davam etdirilməsi, iş adamlarına güzəştli kreditlərin verilməsi kimi məsələlər sırf sahibkarlıq fəaliyyətinin təşviqinə hesablanıb. Odur ki, son 4 ayda ölkədə yeni iqtisadi siyasətin reallaşması istiqamətində həyata keçirilən tədbirlərin bir hissəsi sahibkarlıq sahəsini əhatə edib. Bu məqsədlə qanunlar qəbul olunub, sərəncamlar imzalanıb. Bunlardan biri Prezident İlham Əliyevin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamıdır. Sərəncama əsasən, qeyri-neft ixracının stimullaşdırılması, rəqabət qabiliyyətli məhsulların istehsalı və ixracının, yeni bazarlara çıxış imkanlarının artırılması məqsədilə bir sıra vacib tədbirlər qarşıya vəzifə qoyulub. Prezident İlham Əliyevin "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli fərmanına əsasən isə Azərbaycanda qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödəniləcək.

Yeni islahatların bir istiqaməti də neqativ hallara qarşı mübarizənin gücləndirilməsidir. Azərbaycan Prezidenti yanında Apelyasiya Şurasının yaradılması bu məqsədə xidmət edən addımlardan biridir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da apelyasiya şuraları yaradılıb. Özəl sektordakı yoxlamalara gəldikdə isə bununla bağlı iqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, son zamanlar sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılıb, lisenziyalaşdırma sistemi təkmilləşdirilib: "Atılmış addımlar özəl bölmənin inkişafında mühüm əhəmiyyət kəsb etməklə yanaşı, biznes və investisiya mühitinin yaxşılaşdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Təkcə lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi nəticəsində lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, lisenziyalar müddətsiz müəyyən olunmuş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği təxminən 2 dəfə azaldılmışdır".

Qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən, prioritet hesab olunan sahələrdə investisiya fəaliyyəti həyata keçirən sahibkarların investisiya təşviqi sənədini aldıqları andan idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumlarından da azad olunub. Eyni zamanda, sahibkarlar investisiya təşviqi sənədinə əsasən, 7 il müddətinə fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin mənfəətinin 50 faizinə görə vergidən, həmçinin əmlak və torpaq vergisindən, müvafiq təsdiqedici sənəd əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə ƏDV-dən azaddır.

Hazırda Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 677 mindən çoxdur. ÜDM-in həcmində isə özəl sektorun payı 80 faiz təşkil edir. Belə uğurlu nəticə sahibkarlığın inkişafına diqqətin bariz göstəricisidir. Prezident İlham Əliyevin sərəncamına əsasən, hər il aprelin 25-i respublikamızda "Sahibkarlar Günü" kimi qeyd ediləcək. Bu, özəl sektorun dövlət qayğısı ilə əhatə olunmasının növbəti təsdiqi kimi həm də sahibkarları daha məsuliyyətli olmağa, ölkəmizin inkişafı naminə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çağırır.

Bir sözlə, ulu öndər Heydər Əliyev Azərbaycanda dövlət-sahibkar münasibətlərini tənzimləyən əsas prinsipləri böyük uzaqgörənliklə müəyyənləşdirdi və bunun nəticəsi olaraq özəl sektorun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Bu prinsipləri yeni dövrün tələblərinə uyğun reallaşdıran və ölkəmizin inkişaf strategiyasında sərbəst bazar iqtisadiyyatı münasibətlərinin inkişafına böyük önəm verən Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi siyasət isə göstərir ki, dövlət başçısı iqtisadiyyatın inkişaf perspektivlərində sahibkarlığın rolu barədə əsaslı konsepsiyaya malikdir. Bütün bunlar həm də ondan xəbər verir ki, Prezident İlham Əliyevin iqtisadi islahatlar strategiyasında sahibkarlığın inkişafı aparıcı xətt təşkil edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*(İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş yaradıcılıq müsabiqəsinə təqdim edilir)*